**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA AQROTURİZMİN TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 Sahə iqtisadiyyatı

Elm sahəsi: 53 – İqtisad elmləri


İddiaçı: **Kəmalə Xəlil qızı Yusifova**


Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor,
**Sadıq Vəli oğlu Salahov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, dosent
**Anar Əli oğlu Əzizov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Vüqar Mehrəli oğlu Nəzərov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Kamran Nurəddin oğlu Abdullayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Birgə Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ______________ Əməkdar kənd təsərrüffatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli iqtisadiyyatın dayanıqlı və dinamik inkişafında, əhalinin sosial rifahının yüksəldilməsində mühüm rola malik fəaliyyət sahələrindən biri turizmdir. Müxtəlif növlərə malik bu fəaliyyətlərin sosial-iqtisadi inkişafda rolu müsbət və fərqlidir. Turizmin mühüm istiqamətlərindən biri kənd turizmi qrupunda təmsil olunur. Kənd turizminin regionların tarazlı inkişafına müsbət təsiri, aqroturizmin isə bununla yanaşı kənd ərazilərində işgüzar fəallığın yüksəldilməsi baxımından daha çox diqqət cəlb etdiyini söyləmək olar. Hazırda aqroturizmin mahiyyətinin açıqlanmasında, onun iqtisadi, təşkilati və hüquqi aspektlərinin xüsusilə diqqət mərkəzində olması müşahidə edilir.

Aqroturizmin səmərəli təşkili sayəsində onun sosial-iqtisadi səmərəliliyinə nail olmaq üçün, ilk növbədə müvafiq normativ-hüquqi baza zəruri tələblərə cavab verməlidir. Müvafiq bazanın mükəmməlliyi, aqroturizmə sosial sifarişin artmasında və onun iqtisadi məqsədəuyğunluğunun təsdiqlənməsində həlledici rola malikdir. Fəaliyyətlər kompleksi kimi aqroturizm kənd ərazilərinin idarə edilməsində əhəmiyyətli rol oynaya bilər. Aqroturizm ölkədaxili regionların inkişafına əlavə dinamika verməklə, kənd ərazilərinə investisiya qoyuluşunu, əhəmiyyətli dərəcədə təşviq etmək iqtidarındadır. Aqroturizm fəaliyyəti kənd ərazilərində təbii və mədəni-tarixi potensialı hərəkətə gətirməklə, onları qorumaqla gəlir mənbəyinə çevirməyi nəzərdə tutur, kəndin ixtisaslı və ixtisassız işçi qüvvəsi üçün məşğulluq baxımından seçim imkanlarını genişləndirir.

Aqroturizm ciddi ekoloji tələblərə uyğun fəaliyyət olmaqla kənd ərazilərinin dayanıqlı inkişafına kifayət qədər ciddi təsir imkanlarına malikdir. İlkin yanaşmada belə görmək çətin deyildir ki, haqqında danışılan imkanların hərtərəfli tədqiqi gündəlikdə olmalıdır. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində [3] kənd turizminin (o cümlədən aqroturizmin) ilkin təşəkkül mərhələsində olması göstərilməklə, onun inkişafının prioritetləri müəyyən edilmiş, tədbirlər planı hazırlanmışdır. Həmin tədbirlərin nəticə yönümlüyünün artırılması üçün elmi təminat gücləndirilməlidir.

Hazırda aqroturizmin təşkilati-iqtisadi və hüquqi aspektlərinin işlənməsi istiqamətində tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Covid 19 pandemiyasının turizm sektoruna güclü təsiri sadalanan aspektlərdə araşdırmalarda nəzərə alınmalı, postpandemiya dövrünün gözlənilən parametrləri hərtərəfli səciyyələndirilməlidir. Aqroturizm bazarına konseptual yanaşmanın elmi əsaslandırılmasında da mövcud yaranan reallıqların tələbləri hərtərəfli nəzərə alınmalı, Böyük Zəfər amili diqqət mərkəzində olmalıdır. Hazırda və yaxın perspektivin tələbləri baxımından aqroturizmin infrastruktur təminatının müasir vəziyyəti kompleks təhlil edilməlidir. Sahənin inkişafına təsir edən müxtəlif xarakterli amillərin qiymətləndirilməsinə, habelə aqroturizm potensialının formalaşması mühitinin dayanıqlı inkişaf tələbləri baxımından xarakteristikasına ciddi ehtiyac hiss olunur. Eyni zamanda, qeyd edək ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafında aqroturizmin potensialından səmərəli istifadənin təşkili məsələləri kifayət qədər tədqiq olunmamışdır.

Azərbaycanın Vətən Müharibəsindəki böyük zəfəri nəticəsində erməni işğalından azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə perspektivlərinin müəyyən edilməsi xüsusi aktuallıq kəsb edir. Ölkədaxili regionların sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılması, müvafiq potensialdan daha fəal və səmərəli istifadə edilməsi istiqamətlərinin əsaslandırılması öz həllini gözləyən mühüm məsələlərdir. Göstərilənlər və bir sıra digər məqamlar Azərbaycanda aqroturizmin təşkilinin təkmilləşdirilməsi problemlərinin kifayət qədər aktual olduğunu söyləməyə tam əsas verir.

Kənd turizminin nəzəri və təcrübi problemləri, turizm fəaliyyətinin təşkilinin aktual məsələləri Azərbaycanda Bilalov B.Ə., Budaqov B.A., Əlirzayev Ə.Q., Əsgərov Ə.T., Həsənov A.N., İbrahimov İ.H., Qafarov N.C., Məmmədov E.Q., Salahov S.V., Salmanov A.A., Yeganlı S.T. və başqaları tərəfindən tədqiq olunmuş, mühüm elmi və təcrübi əhəmiyyətə malik nəticələr əldə edilmişdir. Azərbaycanda kənd və sağlamlıq turizminin inkişafı ilə əlaqədar, xüsusilə son dövrlər bir sıra dissertasiya tədqiqatları aparılsa da, [20; 45; 46] aqroturizmin aktual problemləri demək olar ki, tədqiq olunmamışdır.

Aqroturizmin inkişafının problemlərinin xarici ölkə tədqiqatçılarına

gəldikdə isə postsovet məkanı ölkələri alimlərindən Aleksandrova E.V., Artyomova E.N., Balabanova A.O., Nikitina O.A., Panevnikova N.O., Smirnova Q.A., Şumakova O.V. xüsusi qeyd edilməlidir. Qərb tədqiqatçılarından Balaguer J.A., Biancamaria Torquati, Broccardo Laura, Hofmann T., Onder K., Ramankutty N, Wright Wynne və başqalarının əsərləri diqqətə layiqdir.

Həmin əsərlərdə kənd turizminin milli iqtisadiyyatın makro göstəricilərinə, o cümlədən məşğulluğa, gender probleminin həllinə, ekoloji tarazlığa, kənd ərazilərində əhalinin “qocalmasına”, aqroturizmin regional inkişafın dayanıqlığına, iqtisadiyyatın əlaqədar sahələrinin strukturuna təsiri məsələləri tədqiq olunmuşdur. Bununla belə, aqroturizmin təşkilinin aktual problemlərinin nəzəri və təcrübi baxımdan kifayət qədər tədqiq olunduğunu söyləmək mümkün deyildir.

Ümumiyyətlə, qeyd olunan məsələlərin araşdırılması səviyyəsinin onların əhəmiyyətinə adekvat olmadığı, əksər tədqiqatçılar tərəfindən qəbul edilir. Odur ki, Azərbaycanda aqroturizmin təşkili və inkişafı məsələlərinin kompleks tədqiq olunması məqsədəuyğundur.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycanda aqroturizmin sferasında fəaliyyət göstərən müəssisə, təşkilat və sahibkarlıq subyektləridir. Tədqiqatın predmetini aqroturizmin təşkilində meydana çıxan təşkilati-iqtisadi və sosial münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda aqroturizmin inkişafının şəraitinin yaxşılaşdırılması, onun səmərəli təşkili üçün nəzəri-metodoloji müddəaların və təkliflərin hazırlanmasıdır. Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- iqtisadi fəaliyyət növü kimi aqroturizmin inkişafının təşkilati-iqtisadi və hüquqi aspektlərdə tədqiqi;
- aqroturizm bazarı və onun inkişafının tempi və proporsiyalarının səciyyələndirilməsi;
- aqroturizmdə qabaqcıl xarici təcrübənin müqayisəli təhlili və həmin təcrübənin tətbiqi imkanlarının qiymətləndirilməsi;
- dayanıqlı inkişaf baxımından aqroturizmdə mühityaradan amillərin xarakterizə edilməsi;
- regionların və aqrar sahənin inkişafının aqroturizm potensialına təsirinin qiymətləndirilməsi;

- aqroturizm potensialından istifadənin səmərəli təşkilinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi;
- azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə perspektivlərinin müəyyən edilməsi;
- regionların sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılmasına dair təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat ümumi elmi prinsiplərə əsaslanmaqla monoqrafik, elmi abstraksiya, struktur-funksional və müqayisəli təhlil, sintez, induksiya, deduksiya və digər iqtisadi-statistik təhlil metodlarından istifadə edilmişdir. Empirik tədqiqat metodu qismində sosioloji sorğudan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- iqtisadi fəaliyyət növü kimi aqroturizmin inkişafının nəzəri-metodoloji müddəalar;
- aqroturizmin təşkilati-iqtisadi və hüquqi problemləri;
- aqroturizm bazarının formalaşması və inkişafının əsas xarakteristikaları;
- aqroturizmin inkişafı üzrə müxtəlif ölkələrin təcrübəsinin tətbiqi imkanları;
- aqroturizmin dayanıqlı inkişafını şərtləndirən mühityaradan amillər;
- kənd ərazilərinin və aqrar sahənin inkişafının aqroturizm potensialına təsirinin qiymətləndirilməsinin metodoloji elementləri;
- qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından istifadənin səmərəli təşkili sistemi;
- azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə imkanları və onların reallaşdırılması sistemi;
- regionların sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılmasına dair təklif və tövsiyələr.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- aqroturizmin iqtisadi fəaliyyət növü kimi nəzəri-metodoloji müddəaları əsaslandırılmış, onun inkişafının təşkilati-iqtisadi və hüquqi xarakteristikaları dəqiqləşdirilmişdir;
- aqroturizm bazarının inkişaf mühitinin qiymətləndirilməsinin meyar və göstəriciləri müəyyən edilmiş, rəqəmsal mühit

üstünlüklərinin reallaşdırılması məhdudiyyətləri göstərilmişdir;

- aqroturizmdə mütərəqqi təcrübənin tətbiqi imkanları qiymətləndirilmişdir;
- aqroturizmin dayanıqlı inkişafında mühityaradan amillər xarakterizə olunmuşdur;
- kənd ərazilərinin və aqrar sahənin inkişafının regional aqroturizm potensialına təsiri qiymətləndirilmişdir;
- qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından istifadənin təşkili səmərəliliyinin yüksəldilməsi imkanları müəyyən edilmişdir;
- azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə perspektivləri əsaslandırılmışdır;
- aqroturizmin regionların sosial-iqtisadi inkişafında rolunun artırılması üzrə təklif və tövsiyələrin hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti aqroturizmin təşkili səmərililiyinin yüksəldilməsinə dair yanaşmanın irəli sürülməsindən, təcrübi əhəmiyyəti qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından istifadənin səmərəli təşkili, azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə perspektivlərinin reallaşdırılması, aqroturizmin regionların sosial-iqtisadi inkişafında rolunun artırılması üzrə təklif və tövsiyələrin hazırlanmasıdır.

Tədqiqat sayəsində əldə edilmiş nəticələr kənd ərazilərində işgüzar fəallıq, məşğulluq, dayanıqlı inkişafın təşviqi, ekoloji tarazlıq və investisiya siyasəti üçün praktiki əhəmiyyətə malikdir.

Aparılan elmi araşdırma və təhlillərin nəticələrindən dövlətin kənd turizmi strategiyasının işlənməsində, kənd ərazilərində məşğulluğun maliyyələşdirilməsi proqnozlarında, aqrar sahənin və regionların inkişaf proqramlarının hazırlanması və icrasında istifadə oluna bilər. Eyni zamanda təklif edilən yanaşma və əldə edilmiş nəticələr müvafiq istiqamətdə tədqiqat aparan mütəxəssislər və dövlət idarəetmə qurumları üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin nəticələri və əsas müddəaları beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmiş, 1-i xaricdə olmaqla 6 məqalə və 1-i xaricdə olmaqla 9 tezis nəşr edilmişdir. Research and Scientific Group (Polşa, 2019), Azərbaycan

Dillər Universitetinin (Bakı, 2021), Sumqayıt Dövlət Universitetinin (Sumqayıt, 2021), Bakı Slavyan Universitetinin (Bakı, 2022), Odlar Yurdu Universitetinin (Bakı, 2022), Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının (Bakı, 2022), Naxçıvan Dövlət Universitetinin (Naxçıvan, 2022), Mingəçevir Dövlət Universitetinin (Mingəçevir, 2022), Qərbi Kaspi Universitetinin (Bakı, 2022) keçiridikləri beynəlxalq elmi-praktik konfransların materiallarında öz əksini tapmışdır. Nəşr edilmiş elmi əsərlərdən "Azərbaycanda kənd turizminin inkişaf problemləri" (Bakı, 2019), "Turizmin inkişafının aktual məsələləri" (Bakı, 2019), "Мировой опыт организации и развития агротуризма" (Києв, 2020), "Aqroturizmin təşkilati-iqtisadi və hüquqi aspektləri" (Bakı, 2020), "Regionların sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılması istiqamətləri" (Naxçıvan, 2022), "Aqroturizmin potensialından istifadənin təkmilləşdirilməsi" (Bakı, 2022) adlı məqalələri xüsusilə göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur tərkibi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (10839 işarə), I fəsil (85308 işarə), II fəsil (57784 işarə), III fəsil (50011 işarə), nəticə (11138 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (23088 işarə) üzrə ümumi həcm 246718 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, diaqramlar, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 215080 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Təqdim olunan dissertasiya işinin **giriş hissəsində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yenilik, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. öz əksini tapmışdır.

Dissertasiyanın "Aqroturizmin təşkilinin elmi əsasları" adlı birinci

fəslində, ilk növbədə turizmin iqtisadi fəaliyyət növü kimi nəzəri-metodoloji əsasları açıqlanmışdır. Aqroturizmin mahiyyətinə aydınlıq gətirilmiş, onun təşkilati-iqtisadi, ekoloji və hüquqi aspektləri araşdırılmışdır. Aqroturizm bazarının formalaşması və inkişafına konseptual yanaşmalar müqayisəli tədqiq olunmuş, müasir dövrdə daha geniş yayılmış yanaşmalar şərh edilmişdir. Turizmin bu növünün təşkili və inkişafının dünya təcrübəsi öyrənilmiş, Azərbaycan şəraitində tətbiqi məqbul sayılan təcrübələrə daha ətraflı münasibət bildirilmişdir.

Turizm sosial-mədəni fəaliyyət kimi mürəkkəb və çoxşaxəli olsa da, ilk növbədə istirahət, sağlamlıq, maarifləndirmə və idman üzrə fəaliyyətin təşkilini nəzərdə tutan fəal biznes sahəsidir. Bu biznes, pandemiyaya qədərki dövrə qədər genişlənmə xassəsinə malik olmaqla, ölkə daxili və beynəlxalq miqyasda fəaliyyəti əhatə edir. İqtisadi proses və iqtisadi-mədəni hadisə kimi turizm milli və beynəlxalq miqyasda fəaliyyətə xərclər və onların nəticələrinin qiymətləndirilməsi müstəvisində hərtərəfli və sistemli baxış tələb edir.

Dayanıqlı inkişafda turizmin yeri və roluna münasibətdə, indiyə qədər kifayət qədər tədqiqatlar aparılmamışdır. Baxmayaraq ki, gələcək nəsillər üçün problem yaratmayan dayanıqlı inkişafda inteqrasiya proseslərini dəstəkləyən fəaliyyət növü kimi turizmin artan rolu, pandemiyaya qədərki dövrdə müşahidə olunurdu. Müasir dövrdə turizmin təşkilinin yeni model və texnologiyaları birgə istehlak modeli diqqət mərkəzindədir. Böyük ehtimalla demək olar ki, postpandemiya dövründə də birgə istehlak ideyası turizm sahəsinə nüfuz etməkdə davam edəcəkdir.

Turizmin növləri müxtəlifdir və turizmin növlər üzrə təsnifatına yanaşmalar da kifayət qədər fərqlidir. Haqqında danışılan təsnifat əlamətlərinin çoxsaylı olması, turizm fəaliyyətinin sürətlə inkişafı, şaxələnməsi və yayılma arealının genişlənməsi turizmin təsnifatında baş verən dəyişiklikləri şərtləndirən amillərin bir qismidir. Məqsəd, zaman və tələbat əlamətləri turizm növlərinin təsnifatında mühüm yer tutur. Zənnimizcə turizmin növlər üzrə təsnifatında turistin tələbatı əlamətinə xüsusi diqqət yetirilməlidir.

Turizm iqtisadiyyatının məşğulluq, infrastruktur və ekoloji aspektlərinə, hazırda xüsusi diqqət yetirilir. Turizm iqtisadiyyatı

çoxşaxəli, mürəkkəb və dinamik sistemdir. İndiyə qədər aparılmış tədqiqatlar və mövcud təcrübənin təhlili turizmə münasibətdə sistemli yanaşmanın üstünlükləri və perspektivlərini aşkar etməyə imkan verir. Bütövlük, qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq meyarlarına cavab verən turizm iqtisadiyyatının səmərəliliyi, müvafiq biznes mühitinin xarakteristikalarından daha çox asılıdır. Turizm elmi istiqamət kimi geniş predmet sahəsinə malikdir və bu istiqamətdə tədqiqatların dərinləşdirilməsi, insan inkişafı və iqtisadi səmərəlilik baxımından obyektiv zərurətdir.

Aqroturizm turizmin mühüm növü, böyük sosial-iqtisadi, ekoloji və bir sıra digər aspektlərdə böyük əhəmiyyətə malik fəaliyyətlər kompleksidir. Aqroturizmin aşağıdakı alt növləri fərqləndirilir: kənddə yaşayış, həyat təcrübəsi əldə etmə, qastronomik turlar, idman turizmi, ekoloji icma turizmi, etnoqrafik turizm və i.a.

Aqroturizm kənd ərazilərinin idarə edilməsində mühüm amil kimi çıxış etmək iqtidarındadır. Turizmin bu növünün inkişafı strategiyasında kənd təsərrüfatının çoxfunksiyalılığı amili nəzərə alınmalıdır. Bir sıra tədqiqatçıların fikrincə aqroturizmin iqtisadi, sosial, ekoloji, mədəni funksiyaları və kənd təsərrüfatının çoxfunksiyalılığı ilə şərtlənən imkanlar arasında kifayət qədər ciddi oxşarlıq vardır. Belə ki, aqroturizm kənd ərazilərində iqtisadi səmərəlilik meyarları baxımından heç də həmişə ön planda olmayan mədəni və mənəvi dəyərlərin, o cümlədən təbii və tarixi abidələrin bərpası və qorunmasına, xalq sənətkarlığının inkişafına, təbiətə (ətraf mühitə) dost fəaliyyətin təşviq edilməsinə xidmət etməklə daha qlobal vəzifələri icra edir.

Aqroturizmin inkişafı dövlətin xüsusi diqqət yetirdiyi və dəstək verdiyi turizm növüdür. Məsələ ondadır ki, aqroturizm təkcə dövlət büdcəsinə daxilolmaları artıran fəaliyyət olmayıb, kənd yerlərinin və aqrar sahənin inkişafında dövlət siyasətinin prioritetlərinin reallaşmasında bilavasitə iştirak edən turizm növüdür.

Aqroturizmdən kənd əhalisinin iqtisadi fayda əldə etməsi (əlavə iş yeri və kənd təsərrüfatı məhsullarının satışından gəlir), mənəvi dəyərlərə qovuşma prosesində baş verir. Kənd əhalisi, əlavə iş yeri və öz məhsulunu satmaqdan başqa, aqroturizmdən digər gəlir və faydalar da əldə edə bilir. Bura ilk növbədə, kənd əhalisinin öz daşınmaz

əmlakını turizm məqsədi ilə istifadəsi daxildir. Digər tərəfdən, aqroturizm ərazidə sosial infrastrukturun inkişafını sürətləndirə bilər.

Kənd ərazilərində turizm fəaliyyətinin, o cümlədən aqroturizmin təşkilati – iqtisadi və hüquqi əsaslarının araşdırılması, xeyli dərəcədə onun səmərəli təşkili imkanlarının aşkar edilməsi məqsədini güdür. Aqroturizmin səmərəli təşkili dedikdə isə, ilkin yanaşmada mövcud potensialdan, ekoloji məhdudiyyət şərtləri daxilində maksimum istifadə etməyə yönəlmiş fəaliyyət nəzərdə tutulur. Aqroturizmin təşkili nəticə etibarı ilə təsərrüfatın və turistlərin qəbulu üçün sistem əmələ gətirən elementlərin qaydaya salınmasını, elmi təminatdan və əldə edilmiş təcrübədən istifadə sayəsində əlaqələrin optimallaşdırılmasını tələb edir. Aqroturizm xidməti göstərən təsərrüfata rəhbərlik - fəaliyyətin təşkilini, o cümlədən ilk növbədə vəzifə və səlahiyyətlərin bölgüsünü, xidmətin təhlükəsizliyinin təmin edilməsini, fors-major hallarına hazırlığı və i.a. təmin etməkdən ibarətdir.

Azərbaycanda aqroturizmin inkişafı mühitinin xarakteristikası, onun təşkilati-iqtisadi, ekoloji və hüquqi aspektlərinə vahid müstəvidə baxılmasını tələb edir. Turizmin məhz səmərəli təşkilati təminatı sayəsində, onun iqtisadi səmərəliliyinə nail olmaq olar. Bu isə, hər şeydən əvvəl turizm fəaliyyətinin normativ-hüquqi bazasının zəruri tələblərə cavab verməsi halında mümkündür.

Turizm inteqrasiya amilidir və buna görə də aqroturizm bazarı ölkədaxili və ölkələrarası iqtisadi, sosial və digər aspektlərdə həyati rola malik ümumi inteqrasiya sisteminin aparıcı komponenti kimi qəbul edilir. Turizm bazarının xüsusiyyətləri, xeyli dərəcədə xidmət bazarının xüsusiyyətlərinə anolojidir. Əsas fərqlərə isə, ilk növbədə fəaliyyət məkanının pərakəndəliyi və bundan irəli gələnləngimə effekti aid edilməlidir. Məsələ ondadır ki, aqroturizm məhsulunun təbiətdən, konkret ölkədə (ərazidə) kənd təsərrüfatının, mətbəxin, yerli xalq sənətkarlığının nadir cəhətləri haqqında informasiya, rəqəmsal texnologiyalar hesabına nə qədər əyaniləşsə də, şəxsi təmas effektini tamamilə əvəzləyə bilmir. Bu və digər səbəblərdən rəqəmsal texnologiyaların turist məhsulunu tanıtmaq və müştəri etimadını qazanmaq baxımından məsafə amilini neytrallaşdırma imkanlarının hüdudsuz olmadığını söyləmək olar.

İnsanlar bir çox səbəblərdən daha çox yay fəslində aqroturizmlə məşğul olurlar. Odur ki, mövsümə uyğun olaraq xidmətin qiymətinin dəyişilməsi, ərazinin özünəməxsusluğu və digər amillər nəzərə alınmaqla turizm şirkətinin gəlirlərinin ahəngdarlığı təmin olunur. Turizm, o cümlədən aqroturizm bazarında mövsümi tərəddüdləri yumşaltmaq üçün hazırda get-gedə zənginləşən çevik qiymət siyasəti alətlərindən, üsul və vasitələrindən istifadə olunur.

Nadir təbiət abidələrinin, kənd həyat tərzinin digər elementlərinin yalnız maraqlı olduğuna görə turistləri cəlb edəcəyini gözləmək, aqroturizmin inkişafında arzu olunan səviyyəni əldə etmək baxımından yolverilməzdir. Aqroturizm xidmətinə qoyulan tələblər, turizmin digər növlərində fərqli olmalıdır. Əks halda aqroturizmin cəlbediciliyini təmin etmək olduqca çətindir. Odur ki, kreativ yanaşmaları nəzərdə tutan rəqəmsal texnologiyalar hesabına aqroturizmin, bu və ya digər kənd ərazisinə xas olan fərqli cəhətləri əyaniləşdirilməlidir.

Turizm bazarında təqdim edilən xidmətlərin qiyməti, ilk növbədə istehsalın və istehlak xidmətinin təşkili xərcləri, xammalın dəyəri, xidmət növləri üzrə müəyyən edilmiş vergi dərəcələri və gəlirlər kimi elementlərdən formalaşır. Turizm bazarının mövcud vəziyyətinin xarakterizə edilməsi üçün sistem əmələ gətirən göstəricilər formalaşmışdır. Həmin sistemə, ilk növbədə turist məhsulunun satışının həcmi, bazarda fəaliyyət göstərən müxtəlif növ müəssisələrin sayı, turizm bazarının tutumu aid edilir. Turizm bazarının tutumu göstəricisi, öz növbəsində tələb və turizm xidmətləri təklifinin nisbəti, tələb, təklif və turizm məhsulunun reallaşdırılması üzrə əhəmiyyətli dəyişikliklərə məruz qalan şərtləri ilə xarakterizə olunur. Məlum olduğu kimi turist bazarının tutumu müəyyən müddət (adətən, 1 il) ərzində burada alqı-satqı obyekti olmuş turist məhsulu və xidmətlərinin faktiki həcmidir.

Aqroturizm bazarında vəziyyətin qiymətləndirilməsi üçün ümumi meyar və göstəricilərlə yanaşı, özünəməxsus meyar və göstəricilər də təhlilə cəlb edilməlidir. Kənd yerlərində turizm xidmətlərinin cəlbediciliyinin artırılması meyarı, keyfiyyət və qiymətin nisbətinin optimallaşdırılmasını tələb edir. Aqroturizm bazarında xidmət təklifinin qiymətləndirilməsi zamanı meyar turist marağının bu və ya

digər obyektə cəlb olunması müddətinin artırılması qəbul edilə bilər və s. Aqroturizm bazarında vəziyyətin qiymətləndirilməsinin ümumi göstəricilərinə - konkret turizm məhsulunun bütövlükdə turizm məhsulları içərisində payı, ölkədə turizm dövriyyəsinin dünya turizm dövriyyəsində xüsusi çəkisi, ölkədə adambaşına düşən turist məhsulunun müxtəlif inkişaf səviyyəsində olan ölkələrlə müqayisəsinə imkan verən nisbi göstəricilər aid edilməlidir.

Aqroturizm, hazırda dünyanın əksər ölkələrində mövcuddur. İnkişaf etmiş ölkələrdə kənd turizminin formalaşması və inkişafı üzrə onilliklərlə ölçülən təcrübənin təhlili bu sahədə inkişafda müsbət dinamikanın olduğunu söyləməyə əsas verir. Aqroturizmin inkişafında konseptual yanaşmanın mühüm rolu vardır. Bu baxımdan müxtəlif ölkələrdə turizmin, o cümlədən aqroturizmin inkişafının milli konsepsiyalarında ciddi fərqlər vardır. Həmin fərqlər qarşıya qoyulan məqsədlərdə, imkanlarda və vəzifələrdə təzahür edir. Fransa, İtaliya, İspaniya, İsveçrə, Almaniya kimi ölkələrin hər birində aqroturizmin inkişafı üzrə, xeyli dərəcədə özünəməxsus olan modellər formalaşmışdır. Bu, əslində təbiidir. Aqroturizm bu və ya digər kənd ərazisinin imkan və üstünlüklərinin reallaşdırılmasına yönəlmiş fəaliyyət xətti seçməli, yerli aqrar potensialın ekoloji reqlamentlər daxilində maksimum reallaşdırılması tələblərinə cavab verməlidir.

Çoxfunksiyalı aqroturizmin iqtisadi potensialının reallaşdırılması baxımından Qərbi Avropa təcrübəsi diqqətə layiqdir. Məhz Qərbi Avropa ölkələrində aqroturizmin çoxfunksiyalılığının təşviq edilməsi üçün səmərəli dövlət-özəl bölmə tərəfdaşlığı təcrübəsi əldə edilmişdir. Bunun nəticəsidir ki, aqroturizm həmin ölkələrdə fermerlər üçün az qala kənd təsərrüfatı qədər gəlir gətirir. Haqqında danışılan ölkələrdə sahəyə dövlət və yerli özünüidarə orqanları tərəfindən dəstək göstərilməsi sisteminin yeri və roluna xüsusi diqqət verilir.

Aqroturizmin inkişafı üzrə ABŞ təcrübəsində turistlərə ev sahibliyində, turistin hansı ölkədən gəlməsini nəzərə alaraq, xidmətin dəyərini tənzimlənməsindəki çevilkilk diqqətə layiqdir. ABŞ-da və inkişaf etmiş ölkələrin əksəriyyətində olduğu kimi aqroturizmin təşviqində assosiasiyalar və birliklər məsləhət, informasiya, marketinq xidmətləri təşkil etməklə mühüm rol oynayırlar.

Türkiyədə aqroturizmin inkişafı potensialından daha fəal və səmərəli istifadə etmək üçün, təsərrüfatlar dövlət və bələdiyyə orqanları ilə birgə tədbirlər həyata keçirirlər. Türkiyənin aqroturizm sahəsində təcrübəsi formalaşma mərhələsində olsa da, Azərbaycan üçün maraqlı və qiymətlidir. Aqroturizmin inkişafında Yaponiya və Çin təcrübəsi, həmin ölkələrdə kənd həyat tərzinin özünəməxsusuluğu fonunda, xarici turistlər üçün ekzotik və cəlbedicidir. Ekzotiklik kreativ yanaşma tələb edir və bu baxımdan Yaponiyada maraqlı yanaşmalar təşviq olunur.

Aqroturizmin inkişafının dünya təcrübəsinin müxtəsər təhlili və qiymətləndirilməsi barədə aşağıdakıları xülasə etmək olar: aqroturizm kənd ərazilərinin tarazlı inkişafı və sosial-iqtisadi və mədəni inkişaf baxımından onlarla qeyri-aqrar ərazilər arasında fərqin aradan qaldırılması üçün alətdir; aqroturizm kənd ərazilərində nisbətən az gəlirli sahə olan kənd təsərrüfatı ilə məşğul əhalinin əlavə gəlir mənbəyidir; aqroturizm kiçik fermerin rəqabət qabiliyyətini artıra bilər; aqroturizmin çoxfunksiyalılığı onun imkanlarını genişləndirir; aqroturizmin mərkəzi hökumət və yerli özünüidarə orqanları tərəfindən dəstəklənməsi kənd yerlərində məşğulluğun səviyyəsinin yüksəldilməsi və onun strukturunun yaxşılaşdırılması baxımından məqsədəuyğundur; postsovet məkanı ölkələrində aqroturizmin inkişafını ləngidən amillər qismində, ilk növbədə infrastrukturun vəziyyəti, kadr çatışmamazlığı, potensial müştərilərin, o cümlədən kənd əhalisinin məlumatsızlığı qeyd olunmalıdır.

Dissertasiya işinin "Azərbaycanda aqroturizmin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi" adlı **ikinci fəslində,** əvvəlcə aqroturizmin və onun infrastruktur təminatının müasir vəziyyəti, faktiki materiallar bazasında hərtərəfli təhlil edilmişdir. Ölkədə aqroturizmin inkişafına təsir edən amillər aşkar edilmiş və səciyyələndirilmişdir. Fəslin sonunda aqroturizm potensialının formalaşması mühiti dayanıqlı inkişaf tələbləri baxımından xarakterizə edilmişdir.

Ölkədə aqroturizmin infrastruktur təminatının yaxşılaşdırılması baxımından Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrası nəticələri mühüm rol oynamışdır. Belə ki, həmin proqramların icrası dövründə turizm infrastrukturunun inkişafı istiqamətində ölkə regionlarını əhatə edən

geniş miqyaslı tədbirlər həyata keçirilmişdir. Regionlarının sosial-iqtisadi inkişafı üzrə hazırda yerinə yetirilən IV Dövlət Proqramında turizmin inkişafı prioritetlərinə, onların reallaşdırılması vasitələrinə, o cümlədən infrastrukturun inkişafın məsələlərə daha çox yer verilmişdir.

Azərbaycanda turizm üçün xarakterik olan sahələr üzrə əsas göstəricilərin dinamikası, pandemiyaya qədər müsbət olmuşdur. Həmin sahələrdə çalışan işçilərin sayı 2018-ci ildə, 2013-cü ilə nisbətən 30,1% artmışdır. Covid 19 pandemiyası turizmin inkişafına ciddi təsir etmişdir. Belə ki, 2020-ci ildə turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı 19,8% artsa da (cədvəl 1), həmin göstərici 2019-cu ilə nisbətən xeyli aşağı olmuşdur.

**Cədvəl 1.**

**Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər**

| | 2013 | 2014 | 2015 | 2018 | 2019 | 2020 | 2020-ci il 2013-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, min nəfər | 40,9 | 41,9 | 49,5 | 53,2 | 59,0 | 49,0 | 119,8 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyər, milyard manat | 2,08 | 2,40 | 2, 43 | 3, 41 | 3,72 | 1,37* | 65,9 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 3,6 | 4,1 | 4,5 | 4,3 | 4,5 | 1,9* | 52,8 |
| Turizm üçün xarakterik sahələrə yönəldilən investisiyalar, milyon manat | 1371,0 | 2204,0 | 1063,9 | 229,7 | 133,7 | 79,3* | 5,8 |

*** ilkin məlumat.**

**Mənbə:** Azərbaycanda turizm. Bakı, DSK, 2016, s.28; Azərbaycanda turizm. **Bakı, DSK, 2021, s.19**

*Müəllif tərəfindən hazırlanmışdır.*

Turizm infrastrukturu təminat funksiyası ilə yanaşı inteqrasiya və tənzimləyici funksiyaları da icra edir. Turizm infrastrukturunun inteqrasiya funksiyasının icrasının nəticəsi kimi, ölkədə ərazi turist-rekreasiya komplekslərinin formalaşmasını, tənzimləyici funksiyasının icrası nəticəsi kimi iş yerlərinin yaranmasını, fəaliyyətin şaxələndirilməsini göstərmək olar.

2013-2020-ci illər ərzində mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 23,9% artmışdır. Həmin dövrdə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu daha yüksək templə (49,1%) artmış və 2020-ci ilə 50,7 min yer səviyyəsinə çatmışdır. 2013-2018-ci illər ərzində Azərbycanda mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 2,6 dəfə artmış, 2013-2020-ci illərin müqayisəsində bu artım cəmi 0,4% olmuşdur. 2013-2020-ci illər ərzində həmin müəssisələrin əldə etdiyi gəlir 31,8 faiz azalmışdır. Qeyd olunan mənfi dinamika 2019-cu ildən başlayaraq müşahidə edilir və turizm fəaliyyətinə pandemiyanın mənfi təsirinin nəticəsidir.

Kənd turizminin müxtəlif növlərinin inkişafını ləngidən amillər arasında, ilk sırada əlbəttə xidmətlərin keyfiyyətidir. Bu sahədə vəziyyətin qənaətbəxş olmadığı rəsmi sənədlərdə də öz əksini tapmışdır. "Hazırda Azərbaycanın ayrı-ayrı regionlarında, o cümlədən kəndlərində turistlərə yerləşdirmə vasitələri və qidalanma növləri üzrə müxtəlif xidmətlər göstərilsə də, bu xidmətlər istənilən səviyyədə deyildir" (Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 98 s., s. 73)

Aqroturizmin hüquqi statusunda olan qeyri-müəyyənliyin aradan qaldırılması üçün atılan addımlar hələ ki, başlanğıcdır. Məsələ ondadır ki, bu və ya obyektin bilavasitə aqroturizm obyekti kimi təqdim edilməsi heç də az əhəmiyyətli məsələ deyildir. Ölkəmizdə bu məsələ öz həllini gözləyir.

Ölkədə aqroturizmin inkişafı, kənd ərazilərinin və aqrar təsərrüfatçılıq təcrübəsinin unikallığının tanıdılması səviyyəsi ilə bilavasitə bağlıdır. Həmin tanıtma prosesi turistlərin Azərbaycanın aqrar rayonlarına cəlb edilməsi, onların kənd həyat tərzinə marağının

artırılması ilə müşayiət olunmalıdır. Bu istiqamətdə görülən işləri qənaətbəxş hesab etmək çətindir. Bununla belə 2018-ci kənd rayonlarına satılmış turizm yollayışlarının xüsusi çəkisinin artması müşahidə edilmiş, 2020-ci ildə pandemiya səbəbindən azalma baş vermişdir (şəkil 1).




| | Ölkə üzrə, cəmi | Bakı şəhəri | Digər şəhərlər | Kənd rayonları* | Naxçıvan MR** |
|---|---|---|---|---|---|
| 2020 | 100 | 80,4 | 0 | 0 | 19,6 |
| 2019 | 100 | 98,6 | 0,5 | 0,7 | 0,3 |
| 2018 | 100 | 81,5 | 3,8 | 7,3 | 7,4 |
| 2015 | 100 | 91 | 0,8 | 0,1 | 8,1 |
| 2013 | 100 | 94,3 | 0,4 | 0 | 5,3 |

**Şəkil 1. Azərbaycanda ölkə daxilində səyahət etmək üçün satılmış turizm yollayışlarının şəhər və kənd rayonları üzrə xüsusi çəkisinin dinamikası**

* Turizm yollayışlarının satıldığı kənd rayonları dedikdə, əsasən Abşeron, Qax, Qəbələ, Şəmkir və Tovuz inzibati rayonları nəzərdə tutulur.

**Naxçıvan MR üzrə satılmış turizm yollayışlarının şəhərlər və kənd rayonları üzrə bölgüsü bu məcmuədə təqdim edilməmişdir.

*Mənbə: Azərbaycanda turizm. Bakı, 2021, s.35*

Azərbaycanın kənd ərazilərinin böyük turizm potensialı heç də bütün regionları eyni dərəcədə əhatə etmir. Belə vəziyyət xeyli dərəcədə infrastrukturun (sosial və istehsal infrasrtukturunun) inkişaf səviyyəsindəki fərqlərlə əlaqədardır.

Aqroturizmin inkişafında hansı amilin və hansı dərəcədə təsir göstərdiyini, göstəricilərin reprezentativliyinin təmin edilməsində çətinlik olduğu hallarda, təsnifatın bir neçə əlamət üzrə aparılması, alınmış nəticələrin müqayisəli qiymətləndirilməsi təcrübəsi, əlavə şərtlər detallaşdırılmaqla məqbul hesab edilir.

Aqroturizmin inkişafına təsir edən obyektiv xarakterli, yəni cəmiyyətin inkişafı gedişində formalaşmış amillərlə, turizmin inkişafı üçün görülən hüquqi, iqtisadi və institusional tədbirlər sayəsində təsiri artan amilləri də fərqləndirməyə ehtiyac vardır. Aqroturizmin inkişafına təsir edən statik amillər qismində, ilk növbədə coğrafi, təbii-iqlim, mədəni-tarixi amillər, dinamik amillər qismində isə demoqrafik, sosial, iqtisadi, mədəni, elmi-texniki amillər, habelə beynəlxalq amillər qeyd edilməlidir. Aqroturizmin inkişafına təsir edən dinamik xarakterli amillərin təsirinə xüsusi diqqət yetirilməlidir.

**Cədvəl 2.**

**Aqroturizmin inkişafını şərtləndirən amillərin təsir iqtiqaməti**

| **Aqroturizmin inkişafına müsbət təsir edən amillər** | **Aqrourizmin inkişafına mənfi təsir edən amillər** |
|---|---|
| Əhali gəlirlərinin artması | Əhali gəlirlərinin az olması |
| Nəqliyyatın və kommunikasiya vasitələrinin inkişafı | Turizm sənayesinin inkişaf etməməsi |
| İnformasiya texnologiyalarının inkişafı | Məlumatlandırma və maarifləndirmə işinin zəifliyi |
| Urbanizasiya proseslərinin intensivləşməsi | Əsasən böyük şəhərlərin əhalisi hesabına suburbanizasiya proseslərinin baş verməsi |
| İş vaxtının azalması, sərbəst vaxtın artması | Sərbəst vaxtın azlığı |
| Kənd turizmində vergi, gömrük, valyuta və digər tənzimləmə növlərinin sadələşdirilməsi | Turist biznesinin büdcə daxilolmalarında rolunun lazımi səviyyədə qiymətləndirilməməsi |
| İntellektual cəmiyyətin qurulması | İntellektual cəmiyyətdə turizmin rolunun qiymətləndirilməməsi |
| Yaşlı adamlar, gənclər, uşaqlar, əlillər üçün güzəştlər tətbiq etməklə aqroturizmin stimullaşdırılması | Mədəni-tarixi irsin və ətraf mühitin səmərəli istifadə olunmaması |

*Müəllif tərəfindən tərtib olunmuşdur.*

Aqroturizm məhsuluna olan tələbə istehlakçının öz həyat tərzini əhəmiyyətli dərəcədə dəyişməsi təsir edir. İstehlakçıların əksəriyyəti məişətdə get-gedə daha çox rahatlığın zəruri atributlarına üstünlük verir. Bu meyl, əlbəttə aqrar və ekzotik turizm atributları seçimində aqroturizmə birmənalı olaraq üstünlük verilməsi demək deyildir. Məsələ ondadır ki, kənd ərazilərində turizmin bu və ya digər növündə, o cümlədən aqroturizmdə ekzotika elementlərini də önə çəkmək potensialı vardır. Azərbaycanda ərazi, landşaft, adət-ənənə, təsərrüfatçılıq təcrübəsi və bir sıra digər baxımdan müxtəliflik aqroturizmdə ekzotika elementlərini önə çəkməyə imkan verir. Bu zaman isə istehlakçıların dəb və zövqlərində baş verən dəyişikliklərin proqnozlaşdırılmasına ehtiyac yaranır.

Aqroturizmin inkişafını şərtləndirən amillərin təsirini qiymətləndirmək baxımından statistikanın təqdim etdiyi informasiya kifayət deyildir. Odur bu məsələdə sorğu informasiyasından fəal istifadə təcrübəsi mövcuddur. Tərəfimizdən, Qəbələ və İsmayıllı rayonlarında (cəmi 100 anket) kənd əhalisinin aqroturizmə və turistlərə münasibəti aydınlaşdırmaq üçün sorğu keçirilmişdir. Rəyi soruşulanlar fermerlərdir. Cavablar üzrə xüsusi çəkilər aşağıdakı kimi olmuşdur (cədvəl 3):

**Cədvəl 3.**

**Kənd əhalisinin aqroturizmə və turistlərə münasibəti aydınlaşdırmaq üçün keçirilmiş sorğuya cavabların xüsusi çəkisi, faizlə**

| | Bəli | Xeyr |
|---|---|---|
| 1. Aqroturizmin məqsədləri ilə tanışsınızmı? | 60 | 40 |
| 2. Aqroturizmin inkişafı barədə maarifləndirmə işi Sizi qane edirmi | 6 | 94 |
| 3. Turistlərin və onlara xidmət edənlərin ətraf mühitə münasibəti Sizi qane edirmi? | 40 | 60 |
| 4. Aqroturizmə investisiya qoymaq istərdinizmi? | 30 | 70 |
| 5. Aqroturizm xidmətlərini genişləndirmək istəyirsinizmi? | 40 | 60 |
| 6. Bu məqsədlə kredit almaqda çətinliyiniz varmı? | 90 | 10 |
| 7. Turizm infrastrukturunun inkişafını zəruri hesab edirsinizmi? | 80 | 20 |
| 8. Alternativ enerji mənbələrindən istifadə edirsinizmi? | 0 | 100 |
| 9. Xidmətinizlə qazandığınız müştəri məmnuniyyəti Sizi qane edirmi? | 70 | 30 |
| 10. Turizmin inkişafını dəstəkləməklə bu gün işgüzar gəncləri kənddə saxlamaq mümkündürmü? | 20 | 80 |

Aqroturizmin inkişafında maarifləndirmə amili, ölkəmizin əksər regionlarında lazımi səviyyədə qiymətləndirilmir. Yuxarıda materialları təqdim edilən sorğu zamanı rəyi soruşulan 100 nəfərdən 60-ı aqroturizmin məqsədləri ilə tanış olduqlarını bildirsə də, aqroturizmin inkişafı barədə maarifləndirmə işinin onlardan yalnız altı nəfərini qane etmişdir. Onu da qeyd edək ki, rəyi soruşulanların demək olar ki, heç biri alternativ enerji mənbələrindən istifadə ilə aqroturizmin fəaliyyət dairəsinin genişlənməsi arasında əlaqəni əyani şəkildə şərh edə bilməmişdir.

Aqroturiazmə vəsait qoymaq istəyənlər rəyi soruşulanların 30 faizini təşkil etsə də, onların bu işə dərhal başlamaq niyyətində olanları dəfələrlə az olmuşdur. Rəyi soruşulan insanlar kənd turizmi növlərinin, o cümlədən aqroturizmin ətraf mühit və mədəniyyətə uyğunluğu, mənfi təsirlərinin minimum olduğu turizm növü olduğu barədə məqbul şərhlər verə bilməmişlər. Belə vəziyyət kənd əhalisinin aqroturizmə münasibətdə passivliyini şərtləndirən amillərdən biri kimi məlumatlılıq səviyyəsinin qənaətbəxş olmaması faktının kifayət qədər əsaslı olduğunu söyləməyə əsas verir.

Azərbaycanın regional aqroturizm potensialını formalaşdıran amillər çoxsaylıdır və onlara o cümlədən aşağıdakılar aid edilə bilər: nadir bioloji müxtəliflik; coğrafi mövqenin əlverişliyi; təbii ehtiyatların zənginliyi; təbii-iqlim şəraitinin əlverişliyi; tarixi - arxeoloji abidələrin qədimliyi və nadirliyi və i.a.

2020-ci ilə olan məlumata görə Azərbaycanın Respublikasında 79 şəhər, 262 qəsəbə və 4246 kənd yaşayış məntəqəsi vardır. Ölkə əhalisinin 47,0%-i kənd yerlərində yaşayır. Ölkənin kənd yaşayış məntəqələrinin əhali sayına görə bölgüsündə, həmin məntəqələrin 23,8%-i, yəni ən çoxsaylı olanları 501-1000 nəfər əhalisi olan kəndlərdir. Həmin kənd yaşayış məntəqələrinin sayı 970 vahiddir və onların yarıya qədəri dağlıq və dağətəyi ərazilərdə yerləşir. Sonrakı yerləri əhalisinin sayı 201-500 nəfərə və 1001-2000-nəfərə qədər olan kənd yaşayış məntəqələri tutur. Başqa sözlə, məhz həmin kənd yaşayış məntəqələri (onlar ölkədə olan kənd yaşayış məntəqələrinin 66%-ni təşkil edir) aqroturizm üçün potensial məkan sayıla bilər. Bu nəticə aqroturizm və kənd turizminin digər növləri ilə məşğul olan mütəxəssislərlə aparılan sorğular üzrə alınan cavablarla, qismən

təsdiqlənir. Əlbəttə, daha kiçik və daha böyük kənd yaşayış məntəqələrinin aqroturizm potensialı, heç də az əhəmiyyətli hesab edilmir.

Məntiqi müddəaları dəqiqləşdirmək üçün kənd inzibati-ərazi vahidlərinə Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə nəzər salmaq lazımdır (cədvəl 4).

**Cədvəl 4**

**Azərbaycanın iqtisadi rayonlarında kənd inzibati-ərazi vahidlərinin sayı, vahid**

| İqtisadi rayonlar | Qəsəbələr | Kənd yaşayış məntəqələri |
|---|---|---|
| Abşeron-Xızı | 13 | 32 |
| Naxçıvan MR | 9 | 203 |
| Dağlıq Şirvan | 8 | 272 |
| Gəncə-Daşkəsən | 30 | 190 |
| Qazax-Tovuz | 16 | 331 |
| Şəki-Zaqatala | 7 | 336 |
| Lənkəran-Astara | 13 | 638 |
| Quba-Xaçmaz | 21 | 474 |
| Mərkəzi Aran | 8 | 300 |
| Mil -Muğan | 18 | 190 |
| Qarabağ | 37 | 600 |
| Şərqi Zəngəzur | 11 | 534 |
| Şirvan-Salyan | 12 | 146 |

*Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2021, s.67-69*
*Müəllif tərəfindən hazırlanmışdır.*

Gəncə - Daşkəsən, Dağlıq Şirvan, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran – Astara və iqtisadi rayonlarında olan kənd yaşayış məntəqələrinin əhəmiyyətli hissəsi aqroturizm üçün zəruri potensiala malik olsa da, həmin potensial demək olar ki, reallaşdırılmamış qalır. Naxçıvan Muxtar Respublikasının kənd yaşayış məntəqələrinin aqroturizm potensialının reallaşdırılması problemləri, Muxtar Respublikanın blokada şəraitində yaşaması ilə bilavasitə əlaqədardır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqroturizm potensialı isə yenidən qiymətləndirmə mərhələsindədir.

Aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsi kəndin inkişafı ilə bağlı məqsədli proqramların işlənib hazırlanmasından asılı olur ki, bu

da aşağıdakı tədbirlərin həyata keçirilməsini obyektiv zərurətə çevirir: iqtisadiyyatın digər sahələrində olduğu kimi kənd təsərrüfatında da gəlirlərin təmin olunmasına prioritet şəraitin yaradılması; kənd yerlərində aqrar sahəyə alternativ məşğulluğun təmin edilməsi; kənd təsərrüfatı müəssisələrinin istehsal və sosial infrastrukturları ilə bağlı xərc yükünün azaldılması; kənddə mənzil probleminin həlli, səhiyyə, təhsil obyektlərinin tikintisinə, kommunikasiya şəbəkəsinin genişləndirilməsinə dövlət yardımının gücləndirilməsi və bütövlükdə kənddə sosial inkişafın təmin edilməsi; kəndin inkişaf proqramının aqrar sahənin strukturunun yenidən qurulması ilə bağlı həyata keçirilən transformasiya yönümlü dəyişikliklərlə əlaqələndirilməsi; aqrar sahədə fəaliyyət göstərən müxtəlif təsərrüfat qurumlarının maliyyə vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən məqsədli kredit resurslarının ayrılması və kənd təsərrüfatına investisiya qoyuluşlarının stimullaşdırılması.

Kəndin və kənd təsərrüfatının inkişafı səviyyəsinin regional aqroturizm potensialının formalaşmasına təsiri birbaşa olmaya bilər. Odur ki, həmin təsirlərin qiymətləndirilməsi aşağıdakıları nəzərə almalıdır: aqroturizm və kənd turizminin bəzi növləri ucuz başa gəlir, başqa sözlə, bu turizm növü əlyetəndir; sosial statusun stereotip problemi yaratmadığı turizm növü kimi aqroturizm milli adətlərə yaxından tanışlığı təmin edir; aqroturizm səfərlərinin qısa müddətli olması; aqroturizm obyektlərinin reklamına ehtiyatlı münasibət; infrastrukturun inkişafının ekoturizmi və nəticə etibarı ilə aqroturizmi təhdid etməsi ehtimalının olması; aqroturizm kənd ərazilərinin inkişafına, milli irsin qorunmasına, yerli adət-ənənələrin, məhsulların qorunub saxlanmasına yardım verir; aqroturizm xidmətlərinin təşkilində şəhərdə yaşayan kənd əhalisinin fəallığı, ilk baxışda qəribə görünsə də yüksəkdir; ixtisaslaşdırılmış turist kəndləri və kənd ərazilərində etno-mədəni qonaq evlərinin yaradılması təcrübəsi özünü doğrultmaqdadır; aqroturizmin inkişafının mühüm amili sahədə dövlət-özəl bölmə tərəfdaşlığıdır.

“Azərbaycanda aqroturizm potensialından istifadə sisteminin təkmilləşdirilməsi istiqamətləri” adlı **üçüncü fəsildə** qeyri-neft sektorunun inkişafında aqroturizmin potensialından səmərəli istifadənin təşkili imkanları aşkar edilmiş, onların reallaşdırılması

yolları göstərilmişdir. İşğaldan azad edilmiş ərazilərin aqroturizm potensialından istifadə perspektivləri qiymətləndirilmiş, aqroturizmin regionların sosial-iqtisadi inkişafında rolunun artırılması istiqamətləri əsaslandırılmışdır.

Yaşıl iqtisadiyyatın inkişafının prioritet istiqamət olduğu hazırki dövrdə qeyri-neft sektorunun üstün və dayanıqlı inkişafında turizm, o cümlədən aqroturizm fəaliyyətlərinin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Aqroturizmin ölkə və regionun sosial-iqtisadi inkişafında roluna nəzər saldıqda, hətta ilkin yanaşmada belə, bu sahənin inkişafının yeni iş yerlərini yaratdığını, kənd ərazilərində yaşayan insanların gəlirlərini artırdığını, turizmlə əlaqədar sahələrin inkişafını təşviq etməklə multiplikasiya effektinə səbəb olduğu, xalq sənətkarlığını fəallaşdırdığı, valyuta daxilolmalarını artırdığını görmək mümkündür.

Aqroturizmin inkişafı kənd ərazilərində yoxsulluqla mübarizə amili kimi əhəmiyyətli rola malikdir. Turizm fəaliyyətinin inkişafı və kənd ərazilərində məşğulluq səviyyəsi arasında qarşılıqlı əlaqənin tədqiqi, bu əlaqənin nəinki mövcudluğu, habelə məşğulluğun strukturuna ciddi müsbət təsir etmək iqtidarında olduğu barədə fikir söyləməyə imkan verir. Aqroturizmin inkişafı müvafiq infrastruktur elementlərinin sistem əmələ gətirməsi prosesini sürətləndirir. Bu isə əslində həmin prosesin iştirakçılarının məhsul və xidmətlərinə tələbi artırmaqla yanaşı, innovasiya infrastrukturunun təşəkkülünü təşviq etmiş olur.

Aqroturizmin milli iqtisadiyyatın qeyri-neft sektorunun müxtəlif sahələrində iqtisadi fəallığa təsiri, özünü ilk növbədə aşağıdakı istiqamətlərdə büruzə verir: müxtəlif fəaliyyət sahələrinin nəticələrinə, başqa sözlə, məhsul və xidmətlərə tələbin təşviqi; kənd ərazilərində maliyyə resurslarına çıxışın asanlaşdırılmasına dair məlumatlandırma sisteminə münasibətin yaxşılaşması; özəl investorların potensial aqroturizm obyektləri kimi aqrar istehsal subyektlərinə marağının və investisiya qoyuluşlarının artması; indiyə qədər yalnız kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan subyektlərin, çoxfunksiyalı status əldə etmək məqsədilə innovasiyalara həssaslıq səviyyəsinin yüksəlməsi və s.

Qeyri-neft sektorunun inkişafında aqroturizmin potensialından

səmərəli istifadənin təşkilində münasib və rahat turist mühitinin yaradılması, xidmətin keyfiyyəti və qiyməti arasında tələbin artırılması meyarları baxımından optimal nisbətin yaradılması əsas istiqamətlərdən hesab edilməlidir.

Öz ərazi bütövlüyünü Vətən Müharibəsində qazandığı tarixi zəfəri ilə bərpa etmiş Azərbaycan Respublikası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dayanıqlı inkişaf edən milli iqtisadiyyata reinteqrasiyası yolunda böyük və hərtərəfli əsaslandırılmış addımlar atır. Müasir şəraitdə dayanıqlı inkişaf rəqəmsal infrastrukturun inkişafına təkan verən mühüm təşviqedici addımları nəzərdə tutmalıdır. Qarabağda və Şərqi Zəngəzurda başlanmış bərpa və quruculuq işlərinin prioritetlərindən biri kimi məhz aqroturizmin diqqət mərkəzində olması, yüksək ehtimalla "ağıllı" yaşayış məntəqələrinin "yaşıl" iqtisadi fəaliyyət dairəsini əhəmiyyətli dərəcədə genişləndirə bilər.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqroturizm potensialının klaster əsaslı reallaşdırılması təşəbbüsləri proqram - məqsədli inkişaf məsələlərinə diqqəti artırır. Azad edilmiş ərazilərdə işğalçıların on illərlə davam edən ekoloji terrorunun nəticələrinin aradan qaldırılması məqsədilə biomüxtəlifliyin təmin edilməsi istiqamətində davamlı işlər həyata keçirilməli, ətraf mühitin sağlamlaşdırılması üzrə kompleks tədbirlər reallaşdırılmalıdır. Əminliklə demək olar ki, biomüxtəliflik amilinə lazımi diqqət verilməsi Qarabağda aqroturizmin inkişafına təkan verəcək və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi perspektivlərini genişləndirəcəkdir.

Qarabağın və Şərqi Zəngəzurun dirçəlməsində, şübhəsiz ki, ora qayıdacaq insanlar əsas rol oynayacaqdır. Burada kənd ərazilərinin bərpası və kənd təsərrüfatının inkişafı aparıcı istiqamət kimi nəzərdə tutulur. Yüksək ehtimalla demək olar ki, aqroturizm xidmətləri, bu ərazilərdə öz xərclərini daha tez çıxardacaq və kənd yerlərində məşğulluğa müsbət təsir edəcəkdir. Qarabağda və Şərqi Zəngəzurda iqtisadi fəallığın dəstəklənməsi baxımından aqroturizmin inkişafı sayəsində xırda kənd təsərrüfatı istehsal subyektlərinin rəqabət qabiliyyətini yüksəltmək mümkündür. İşğaldan azad olunmuş ərazilərə investisiya axınlarının təşviqi də, zəruri loqistik təminatın yaradılması tədbirləri ilə müşayiət olunduqda haqqında danışılan imkanları, əhəmiyyətli dərəcədə genişləndirə bilər.

Qarabağın və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqroturizm potensialından istifadə səmərəliliyinin yüksəldilməsi baxımından aşağıdakı istiqamətlərin perspektivli olduğunu söyləyə bilərik: azad edilmiş ərazilərin yüksək texnoloji yaşıl layihələrin poliqonuna çevrilməsi; biomüxtəlifliyin bərpası tədbirlərinin kompleksliyinin təmin edilməsi; aqroturizm sahəsində ixtsaslı kadr hazırlığına xarici ekspertlərin daha fəal surətdə cəlb edilməsi, rəqəmsal texnologiyalar bazasında təlimlərin keçirilməsi, xarici dil kurslarının davamlılığının təmin edilməsi; kənd əhalisinin zəruri informasiya ilə təminatı vəziyyətinin yaxşılaşdırılması; aqroturizmə yönəldilə bilən investisiyaların təşviqi, o cümlədən optimal güzəştlər sisteminin müəyyən edilməsi; aqroturizm infrastrukturunun inkişafında bölgənin rekreasiya potensialından istifadə komponentlərinin nəzərdə tutulması; kənd sakinlərinə aqroturizmin inkişafı məqsədi ilə güzəştli mikrokreditlərin verilməsi; aqroturizm potensialının qiymətləndirilməsi və inkişafı problemlərinin tədqiqi; azad olunmuş ərazilərin bərpası və inkişafında iqtisadi impuls mənbəyi kimi çıxış edə bilən rayonlarda pilot layihələrin həyata keçirilməsi.

Aqroturizm potensialından səmərəli istifadə baxımından turların seçimində çoxvariantlığın və fərdiliyin təmin edilməsi, proqramların çevik dəyişdirilməsi üçün zəruri imkanların olması, yeni biliklərin və təcrübənin əldə edilməsi, təəssüratların müxtəlifliyi və zənginliyi, yaşayış fəallığının yüksəlməsi, yerli həyat tərzinin maraqlı surətdə təqdim olunması kimi məsələlərin həlli mühüm əhəmiyyətə malikdir.

Aqroturizm biznes modeli kənd icmasının dayanıqlı inkişafı siyasəti aləti kimi qəbul edilə bilər. Həmin alətdən istifadə imkanları genişlənməkdədir və bu baxımdan, şaxələndirmə və dinamizmin təşviqi xüsusi qeyd edilməlidir. Aqroturizm gender bərabərliyinin təmin edilməsi baxımından əhəmiyyətli potensiala malikdir. Kənd turizminin bu növündə turistlər üçün ev rahatlığının yaradılması, zəruri infrastruktur və interyerlə yanaşı insan amilinə də tələbləri ciddiləşdirir. Haqqında danışılan tələblərə uyğun fəaliyyətdə qadınların iştirakı, bütün hallarda müştəri məmnunuiyyətinin təminatı baxımından özünü doğruldur.

Aqroturizmin səmərəli inkişafı onun təşkili səviyyəsi və ümumiyyətlə müvafiq təşkilati təminat səviyyəsi ilə bilavasitə

bağlıdır. Kənd ərazilərinin dayanıqlı inkişafını təmin etmək məqsədi ilə yaradılan aqroturizm klasterlərinin formalaşmasının təşviqi iqtisadi və ekoloji səmərəlilik meyarları üzrə birgə reallaşdırılan fəaliyyətlərin təşkili üçün, aparılmış tədqiqatların nəticələrinə görə, əlverişli institusional mühit yaradır.

Aqroturizmin inkişafına təsir edən və son dövrlərdə əhəmiyyəti artan amillərdən biri də istirahət edənlərin təhlükəsizliyinin təmin edilməsidir. Onu da qeyd edək ki, bütün ölkələrdə kənd ərazilərinə səyahət dövründə turistlərin həyatının, sağlamlığının, əmlakının təhlükəsizliyinin təmin olunması üzrə mövcud standartlara birmənalı riayət edilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlərin səmərəliliyinin yüksəldilməsi kənd turizminin bütün növləri üzrə aktual olaraq qalır. Tarixən dini dözümsüzlüyün, ksenofobiyanın, irqçiliyin və ekstremizmin qəti surətdə qəbul edilmədiyi ölkəmizdə belə aqroturistlərin təhlükəsizliyinin təmin edilməsi məsələsi diqqətdən kənarda qalmamalıdır.

Azərbaycanda aqroturizm və kənd ərazilərinin dayanıqlı inkişafı arasında qarşılıılqlı əlaqələri aşağıdakı kimi təqdim etmək olar (şəkil 2).

| | | | |
|---|---|---|---|
| Aqroturizm | Ətraf mühitin mühafizəsi | Torpaqdan səmərəli istifadə, ətrafa düşən antropogen yükün azaldılması, xüsusi qorunan təbii ərazilərin inkişafına dəstək, təbiətə uyğunlaşan təsərrüfat fəaliyyətlərinin təşviqi, nadir bitki və heyvan növlərinin qorunması | Ərazilərin dayanıqlı inkişafı |
| | Multikulturalizmin inkişafı | Mədəniyyətlərarası anlaşma və qarşılıqlı hörmətin, fərqli mədəniyyətlərin bir arada inkişafının təşviqi | |
| | Mədəni və tarixi abidələrin qorunması | Adət və ənənələrin qorunması, tarixi abidələrin bərpası və mühafizəsi, xalq sənətkarlığının inkişafı | |
| | Sosial-iqtisadi inkişaf | Məşğulluğun, təhsiln səviyyəsinin yüksəldilməsi, infrastrukturun, o cümlədən rəqəmsal infrastrukturun inkişafı, büdcə və əhali gəlirlərinin artması, qarşılıqlı əlaqələrin, onlarla iqtisadi fəaliyyət sahəsinin inkişafı | |

**Şəkil 2. Azərbaycanda aqroturizm və kənd ərazilərinin dayanıqlı inkişafı arasında qarşılıılqlı əlaqələr**

Dissertasiya işinin **"Nəticə"** bölməsində ölkə regionlarının sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılması istiqamətləri kimi aşağıdakılar qeyd olunmuşdur:

1. Rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından aqroturizm xidmətlərinin əlverişli "keyfiyyət-qiymət" nisbətinin təmin edilməsi;
2. İnsan resurslarının keyfiyyətinin yüksəldilməsi, kreativ düşüncənin və innovasiyaya açıqlığın təşviq edilməsi. Aqroturizmin inkişafı üçün bilik və bacarığın artırılması;
3. Ərazidə iqtisadi fəallığı yüksəldilməsi və məşğulluğun, habelə özünüməşğulluğun təşviq olunması;
4. Maliyyələşmə mənbələlərinin sayının artırılması, eyni zamanda onlarla daimi tərəfdaşlığın təşviqi, dayanıqlı biznesin və yaxın ərazinin inkişafına yönələn ailə investisiyalarının artırılması;
5. Aqroturizmdə müştəri əlaqələrinin idarə edilməsinin rəqəmsal sisteminin qurulması və müştərilər üzrə optimal ixtisaslaşmanın həyata keçirilməsi mühüm istiqamətlərdir. Bu zaman xidmətlərin keyfiyyət və standartlara uyğunluğu, habelə dayanıqlı inkişaf meyarlarının birgə nəzərə alınması;
6. Aqroturizmin inkişafına dövlət dəstəyi üzrə səmərəli tədbirlərin sistem əmələ gətirməsi təmin edilməlidir. Kənd turizmi infrastrukturunun yaradılmasına əsaslı məsrəflərin kompensasiyası, aqroturizm sahəsində yenicə fəaliyyətə başlayan aqrar sahibkarlara və ailə təsərrüfatlarına qrantların verilməsi, aqroturizm obyektlərinin inşası və ya yenidən qurulmasına kreditlər üzrə faizlərin subsidiyalaşdırılması xüsusi qeyd edilməlidir. Eyni zamanda, aqrar sahədə fəaliyyətlərin şaxələndirilməsi və inteqrasiyası arasında, yaxın perspektiv və optimal nisbətin tapılması;
7. Ölkədə yaradılmış əlverişli investisiya mühitindən aqroturizmin inkişafı məqsədilə bəhrələnmək;
8. Turist xidmətlərinin qiymət artımına qarşı davamlı iqtisadi və iqtisadi-institusional tədbirlərin həyata keçirilməsi; aqroturizm fəaliyyəti göstərən subyektlərin təşkilatlanması, o cümlədən assosiasiyalarda birləşməsi;
9. Məqsədli auditoriya ilə əlaqələrin daimiliyi və səmərəliliyinin təmin edilməsi üçün kütləvi informasiya vasitələrinin maraqlandırılması;

10. Mütərəqqi informasiya texnologiyalarından və rəqəmsal mühitin digər üstünlüklərindən istifadə edilməsi;

11. Yerli və xarici şəhər əhalisinin əksəriyyətinin tələblərinə uyğun, ailəvi istirahət meyarlarına müvafiq ən müasir aqroturizm modelinin qurulması təmin olunmalıdır.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı dərc olunmuş elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Azərbaycanda kənd turizminin inkişaf problemləri. // “Kooperasiya” elmi-praktiki jurnal, Bakı ,2019, № 2 (53). s. 219-225.

2. Turizmin inkişafının aktual məsələləri // “Azərbaycan aqrar elmi” elmi nəzəri jurnal, Bakı, 2019, № 4. s. 179-183.

3. Мировой опыт организации и развития агротуризма // “Вчені записки”, Київ, 2020, № 4 (70). s. 21-27.

4. Aqroturizmin təşkilati-iqtisadi və hüquqi aspektləri // “Kooperasiya” elmi-praktiki jurnal, Bakı, 2020, № 4 (59). s. 166-172.

5. Regionların sosial-iqtisadi inkişafında aqroturizmin rolunun artırılması istiqamətləri // Naxçıvan Universiteti, “Elmi əsərlər” jurnalı, Naxçıvan, 2022, № 1 (25) II hissə. s. 43-50.

6. Aqroturizmin potensialından istifadənin təkmilləşdirilməsi // “Tikintinin iqtisadiyyatı və menecment”, elmi-praktik jurnal, Bakı, 2022, № 2 (19). s. 127-137

7. Turizmin inkişafının nəzəri-metodoloji əsasları // Proceedings of the IX International Scientific and Practical Conference, International Trends in Science and Technology, Warsaw, Poland, 31 yanvar 2019. s. 40-47

8. Qarabağda aqroturizm: imkanlar və perspektivlər // AR Təhsil Nazirliyi, Azərbaycan Dillər Universiteti. “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda II Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər” Respublika elmi konfransı, Bakı, 29-30 oktyabr 2021. s. 503-507

9. Ağdamın turizm potensialı // Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfrans, Ağdam, 2021. s. 428-431

10. Azərbaycanda aqroturizmin təşkili // AR Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti, "Azərbaycan Respublikası 1991-2021: dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosial-mədəni inkişafı", Respublika elmi konfransı, Sumqayıt, 14-15 oktyabr 2021, № 5. s. 227-229.

11. Azərbaycanda qeyri-neft sektorunun inkişafında aqroturizm potensialından səmərəli istifadənin təşkili // AR Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, "Azərbaycanşünaslığın aktual problemləri", XIII beynəlxalq elmi-praktik konfrans, Bakı, 4-5 may 2022. s. 546-549

12. Aqroturizm bazarının təşəkkülü və inkişaf perspektivləri // Odlar Yurdu Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı, Bakı, 4 may 2022. s. 95-102

13. Qeyri-neft sektorunun inkişafı arqumentləri və aqroturizm potensialı // Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası. Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Modernləşmənin prioritet istiqamətləri: sosial-mədəni və iqtisadi aspektlər" mövzusunda keçirilən beynəlxalq elmi konfrans. Bakı, 2022. s. 158-161.

14. Qarabağda turizmin inkişafı və perspektivləri // Naxçıvan Muxtar Respublikasında sənayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi" Beynəlxalq elmi-praktik konfrans, Naxçıvan, 2022. s. 296-299

15. Regional inkişafda aqroturizm potensialı // Mingəçevir Dövlət Universitetinin təşkil etdiyi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası və müasir Azərbaycan" mövzusunda elmi-nəzəri konfrans, Mingəçevir, 2022. s. 243-246

Dissertasiyanın müdafiəsi 13.09.2023-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11.07.2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.07.2023-cü il

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46484 işarə

Tiraj: 100